**Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.**

**Heydər Əliyev.**



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 10-11 (9218-9219) | 17 iyun 2016-cı il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik

## R.A.Babaşovun Qazax Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq qərara alıram:

Rəcəb Abas oğlu Babaşov Qazax Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 19 may 2016-cı il.***

## 2016-cı il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Babaşov Rəcəb Abas oğlu | Rayon İcra Hakimiyyətinin Başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | Rayon İcra Hakimiyyəti Başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti Başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Abışov Gündüz Fəxrəddin oğlu<br><br>Alıyev Məmməd Oruc oğlu<br><br>Həsənov Mehdi Alı oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri<br><br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br><br>Memarlıq və tikinti şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |

***Qeyd:***

**1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.**

**2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.**

**3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :**
**022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70**

## 28 May Respublika Günüdür

# ŞƏRQİN İLK DEMOKRATİK DÖVLƏTİ






**28 May Respublika Günü münasibətilə rayonumuzda tədbir keçirilmişdir. Toplantıdan əvvəl ulu öndər, ümummilli lider Heydər Əliyevin əziz xatirəsi dərin hörmət hissi ilə anılmış və abidəsi önünə gül-çiçək dəstələri qoyulmuşdur.**

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq bildirmişdir ki, hər il may ayının 28-də Respublika Gününü qeyd edərkən qürur hissi keçirir, ötən əsrin əvvəllərində xalqımızın vətənpərvər oğullarının apardığı mübarizənin nəticəsi kimi yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin şərəfli tarixi ilə fəxr edirik.

28 may 1918-ci ildə Şərqdə ilk demokratik respublika-Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Həmin gün Tiflis şəhərində Canişin sarayında Həsən bəy Ağayevin sədrliyi ilə Zaqafqaziya seymində təmsil olunan 44 nümayəndədən 26 nəfərin iştirakı ilə "Bəyannamə" qəbul edilərək Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan edildi.

Gənc Azərbaycan Respublikası tərəfindən həyata keçirilən siyasət müstəqil dövlətçiliyin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Aprelin 28-də XI rus ordunun hərbi müdaxiləsi ilə Azərbaycanın müstəqilliynə son qoyuldu. Cümhuriyyət cəmi 23 ay yaşasa da, xalqımızın yaddaşında silinməz izlər buraxmışdır. Azərbaycan Demokratik Respublikasının 1918-ci ildə Azərbaycana əkdiyi müstəqillik toxumu XX əsrin son on illiyində yenidən cücərib üzə çıxdı. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Beləliklə, XX əsrdə Azərbaycan ikinci dəfə siyasi müstəqillik əldə etdi.

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir, ən böyük sərvətimizdir. Eyni zamanda bu, xalqımızın azadlıq uğrunda apardığı mübarizənin nəticəsidir. Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin sözləri ilə desək, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkədə sabit dövlətçilik ənənələri yaratmış, respublikamızı davamlı inkişaf yoluna çıxarmış lider kimi xalqımızın qəlbində yaşayır və rəğbətlə anılır. Bu gün istər Azərbaycan Xalq Cümhuriyyəti yaradıcılarının, istərsə də ulu öndər Heydər Əliyevin müstəqil dövlətçilik məsələləri ilə bağlı arzuları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla gercəkləşdirilir.

Bu gün dünyada gedən mürəkkəb, ziddiyyətli proseslərə baxmayaraq, ölkə vətəndaşları əmindirlər ki, İlham Əliyevin yeritdiyi siyasət respublikanın siyasi müstəqilliyini və milli təhlükəsizliyini daha da möhkəmləndirəcək, onun inkişaf etmiş ölkələr sırasına yüksəlməsini təmin edəcəkdir.

Sonra İcra Başçısı 28 may-Respublika Günü münasibətilə tədbir iştirakçılarını və bütün xalqımızı təbrik etmiş, onlara möhkəm cansağlığı, səadət, xoş güzəran arzulamışdır. Azərbaycanda tezliklə əbədi sülhün bərqərar olmasına və böyük Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi ilə respublikamızın dünyanın qüdrətli dövlətləri sırasında həmişə azad və müstəqil yaşamasına əmin olduğunu ifadə etmişdir.

RİHB-nın müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gulaya Həsənova məruzə ilə çıxış etmişdir. Bakı Dövlət Universiteti Qazax filialının direktoru Afaq Qasımova, "Azərsığorta" Dövlət Şirkəti Qazax filialının direktoru Mübariz Abdullayev, rayon Gənclər və İdman idarəsinin rəisi Vüqar Nəbiyev və başqaları çıxış etmişlər.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq əlamətdar gün münasibətilə tədbir iştirakçılarını, rayon sakinlərini bir daha təbrik etmiş, ən xoş arzularını bildirmişdir.

**Elçin İSMAYIL**

# Şəhid hərbiçilərimizin medalları ailə üzvlərinə təqdim olunmuşdur





**Qoşunların təmas xəttində erməni işğalçıları ilə döyüşlərdə şəhid olan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına ölümündən sonra medallar təqdim olunmuşdur. Rayonumuzda bu münasibətlə medalların təqdim olunma mərasimi keçirilmişdir. Tədbirdə şəhidlərin ailə üzvləri, hərbiçi yoldaşları, Müdafiə Nazirliyinin əməkdaşları, rayon İcra Hakimiyyətinin məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, Qarabağ Müharibəsi veteranları və ictimaiyyət nümayəndələri iştirak etmişdir İlk öncə Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq aprelin əvvəllərində erməni işğalçılarının cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən danışmışdır. Bildirmişdir ki, dörd günlük savaşda düşmən Ordumuzun qüdrəti qarşısında vahiməyə düşdü. İşğalçı ermənilər bir daha əmin oldular ki, Azərbaycanın güclü ordusu var və Azərbaycan əsgəri qələbə qazanmaq əzmindədir. Azərbaycan xalqı öz torpaqlarını heç zaman güzəştə getməyəcəkdir.

Polkovnik, əməkdar incəsənət xadimi Abdulla Qurbani tədbirdə çıxış edərək şəhidlərin göstərdiyi qəhrəmanlıqlardan, ordumuzun cəbhədəki uğurlarından danışmışdır. Qeyd etmişdir ki, Azərbaycan Ordusunun qüdrəti, gənclərimizin Vətən sevgisi, əsgərlərimizin döyüşlərdəki şücaəti, Silahlı Qüvvələrimizin gücü, xalq və ordu birliyi sayəsində işğal altındakı bütün torpaqlarımız tezliklə azad olunacaqdır. Ali Baş Komandan İlham Əliyevin əmri ilə döyüşə hər an hazır olan silahlı qüvvələrimizin ölkəmizin ərazi bütövlüyünü təmin edəcəyi günün çox da uzaqda olmadığını, qəhrəmanlarımızın qanının yerdə qalmayacağını bildirmişdir.

Tədbirdə şəhidlərimizin döyüş yoluna nəzər salanlar onların əsl vətənpərvər, qorxmaz, cəsur və yüksək nizam-intizamlı hərbiçi olduqlarını bildirmişlər. Qeyd olunmuşdur ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən bütün şəhidlərimiz kimi Mühüd Orucov, Elvin Namazov və Orxan Əliyev də heç zaman unudulmayacaq, onların əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Tədbirdə "Bayraqtəpə qartalları" adlı sənədli film nümayiş olunmuşdur.

Kapitan Orucov Mühüd Qurban oğlu, baş leytenant Namazov Elvin Məmməd oğlu "İgidliyə görə", Əliyev Orxan Məhəmməd oğlu isə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalla təltif olunmuşlar.

Mərasimin sonunda rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov şəhidlərin təltif olunduqları medalları onların ailə üzvlərinə təqdim etmişdir.

**Elçin İSMAYIL**





# “MƏN SİZİNLƏ BİR YERDƏ OLACAĞAM”

## RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI RƏCƏB BABAŞOVUN KƏNDLƏRDƏ KEÇİRDİYİ GÖRÜŞLƏRDƏ BU FİKİR SƏSLƏNMİŞDİR



**Problemləri yerində öyrənmək, əhalini narahat edən məsələləri onların dilindən eşitmək olduqca səmərəli və vacibdir. Bu, həm problemi dərindən və ətraflı öyrənməyə kömək edir, həm də kənd sakinləri qaldırdıqları məsələlərin həllini əyani şəkildə görürlər.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən kəndlərdə yerli sakinlərlə görüşlər keçirir. Rəcəb Babaşov keçirilən görüşlərdə əhalini narahat edən problemləri və qayğıları dərindən öyrənir, onların həlli istiqamətində elə görüş zamanı konkret tapşırıqlar verir. Rayon rəhbərliyi Məzəm, Quşçu Ayrım, Fərəhli, Alpout, Abbasbəyli, Cəfərli, Bala Cəfərli, Aslanbəyli, Kəmərli, Qaymaqlı, Kosalar və Canalı kəndlərində görüşlər keçirmiş, əhalini narahat edən problemləri öyrənmişdir. Görüşlər zamanı verilən konkret tapşırıqların yerinə yetirilməsinə artıq başlanılmışdır. Qısa müddət ərzində həlli vacib olan bir sıra məsələlər artıq həyata keçirilmişdir.



Rayon mərkəzində, eləcə də kəndlərdə bir sıra problemlər yaşanmaqdadır. Zaman-zaman yaranmış bu problemlər haqlı olaraq əhalini narahat edir, onların yaşam tərzinə mənfi təsir göstərir. Ən çox görünən problem odur ki, zaman-zaman rayon rəhbərliyi ilə əhali arasında bir boşluq yaranmışdır.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov rayon sakinləri ilə görüşlərə ilk olaraq sərhəd kəndlərindən başladı. Bu da təsadüfi deyil. Çünki rayon rəhbərliyi fəaliyyətə başladığı ilk gündən sərhəd kəndlərinə nəzarəti öz üzərinə götürmüşdür. Bu da cənab Başçının sərhəddə yaşayan kənd sakinlərinə olan sonsuz diqqət və qayğısından irəli gəlir.

Görüşlərə Məzəm kəndindən başlanıldı. Kənd camaatının toplaşdığı görüşdə Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək bildirdi ki, “Əziz kənd sakinləri mən sizi dinləməyə gəlmişəm. Bu gün Məzəmdə yaşamaq doğurdan da igidlikdir, mərdlikdir. Mənfur düşmənlə yaxın bir məsafədə yerləşməyinizə baxmayaraq siz öz el-obanıza, daha doğrusu kəndinizə bağlı olmuş və öz sevginizi, öz məhəbbətinizi əməlinizlə göstərmisiniz. Düzdür, düşmənlə mübarizədə şəhidlər də vermisiniz, evləriniz güllələrdən deşik-deşik olmuşdur. Çoxlu acılar, məhrumiyyətlər çəkmisiniz. Amma sizin qəlbinizdəki vətən sevgisi, torpaq sevgisi o qədər böyükdür ki, öz torpaqlarınızdan bir qarış belə geri çəkilməmisiniz”. Qeyd etdi ki, mən bu gündən kəndlərdə görüşlərə başlayıram. Məqsədim yerli camaatla bir yerdə olmaqdır. Onları narahat edən məsələləri onların öz dilindən eşitməkdir. Bilin ki, mən hər bir rayon sakininin yanında olacağam.



Tədbirdə iştirak edən kənd sakinləri rayon rəhbərliyinin səmimi sözlərini böyük ruh yüksəkliyi ilə qarşıladılar. Şəhid atası Dursun Məmmədov söz alıb Rəcəb Babaşova xoş gəldin deyərək kənd sakinləri adından minnətdarlığını bildirdi. Kənd sakinlərindən Məmməd Əliyev çıxış edərək bildirdi ki, kəndimizin ətrafına 256 m uzunluğunda istinad divarları çəkilmişdir. Lakin bu əhalinin təhlükəsizliyini qorumaq üçün yetərincə deyil. Eyni zamanda düşmənin atəş nöqtələri ilə üzbəüz dayanan evlərin qarşısında da istinad hasarları çəkilməlidir. Kənd sakinlərindən Sabir Məmmədov, Cəbrayıl Osmanov, Bəhruz Süleymanov, Əsli Nəsibova çıxış edərək dedilər ki, biz Məzəm kəndində yaşamağımızla qürur duyuruq. Bu balaca kəndimizdə bir Milli Qəhrəman və bir şəhidimiz var. Sağ olsun dövlətimiz bizə hərtərəfli qayğı göstərilir. Yolumuz, qazımız, işığımız var. Amma bunlarla yanaşı problemlərimiz də az deyil. Belə ki, kənddə tez-tez işıqlar sönür. İşıq sönəndə də ətraf mühitlə əlaqə kəsilir. Nə ev telefonları, nə də mobil telefonlar işləmir. Çıxış edənlər bildirdilər ki, kəndimizin sərhəd ərazisinin çox hissəsi minalanıbdır. Az da olsa əkin sahələrimiz var. Torpağı əkib becərmək üçün subsidiya və yanacaq pulunun verilməsində problemlər yaranıb. Həmçinin çıxış edələr onu da qeyd etdilər ki, sağ olsun cənab Prezidentimiz İlham Əliyevin sərəncamı ilə rayon mərkəzindən kəndimizə yüksək səviyyəli asfalt yol çəkilmişdir. Lakin kəndimizin ara yolları isə pis vəziyyətdədir. Təqribən 2 km-ə yaxın olan yolun düzəldilməsinə ehtiyac var.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edən kənd sakinlərini dinlədikdən sonra camaatın qaldırdıqları problemlərin həlli istiqamətində yerindəcə tapşırıqlar verdi. Bildirdi ki, düşmənin atəş nöqtələri ilə üz-üzə olan evlərin qarşısına günü sabahdan istinad divarlarının çəkilməsinə başlanılacaqdır. Eyni zamanda kəndarası yollar da elə sabahdan təmir olunacaqdır.

Kənd sakinləri ilə görüş başa çatdıqdan sonra Rəcəb Babaşov kənd qəbirstanlığına gedərək orada uyuyan Azərbycanın Milli Qəhrəmanı Nəsibov Mərifət Əhməd oğlunun qəbrini ziyarət etdi.



Daha sonra Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov kənd sakini Süleyman Süleymanovun evinə baş çəkdi. Süfrə ətrafında söhbət edərək çay içdilər.

Növbəti belə görüş Quşçu Ayrım kəndində keçirildi. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşdə çıxış edərək bildirdi ki, “Mən reallığı, mövcud vəziyyəti bilmək üçün sizin yanınıza gəlmişəm. Odur ki, mənə əsl reallığı deyin, problemləri bildirin. Qeyd etdi ki, mən tez-tez - ən azı ayda 2 dəfə sizinlə görüşə gələcəyəm. Çünki məqsədim, məramım xalqa xidmət etməkdir. Bunun üçün əlimdən gələni edəcəyəm. Bildirdi ki, Quşçu Ayrım kəndində yaşamağın özü belə igidlikdir. Ötən müddət ərzində siz 18 şəhid vermisiniz. Mən şəhid analarının qarşısında baş əyirəm”.

Şəhid Yavər Mirzəyevin atası Cəfər Mirzəyev söz alaraq cənab Rəcəb Babaşova kənd sakinləri adından öz minnətdarlığını bildirdi. Qeyd etdi ki, bizim demək olar ki, heç nəyə ehtiyacımız yoxdur. Yalnız bizə diqqət və qayğı lazımdır. Kənd sakinlərindən Yusif Nəbiyev, Naibə Mehdiyeva, Cəvahir Namazova, Nisə Alıyeva, Nuru Hacıyev və başqaları çıxış edərək şəxsi və ümumi problemlərdən danışdılar.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edən kənd sakinlərinin qaldırdıqları problemlərə öz münasibətini bildirdi və qaldırılan problemlərin həlli ilə əlaqədar konkret tapşırıqlar verdi.

Fərəhli kəndində keçirilən görüş də çox işgüzar və səmərəli oldu. Rəcəb Babaşov şəhid anaları Sima Hacıyeva və Həmayə Qurbanova ilə görüşərək qeyd etdi ki, “Sizin övladlarınız bu gün bizim, bütün Azərbaycanın övladlarıdır. Siz ən yüksək diqqət və qayğıya layiqsiniz”. Sonra rayon rəhbərliyi çıxış edərək kənddəki problemləri əhalinin öz dilindən eşitmək istədiyini bildirdi.

Görüşdə söz alan kənd sakinlərindən Şaban Abdullayev, Cəlal İbrahimov, Mahmud Məmmədov, Alı Həsənov və başqaları kənddə yol, su, keyfiyyətli toxum problemlərinin və həkimə ehtiyac olduğunu qeyd etdilər.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edən kənd sakinlərini diqqətlə dinlədikdən sonra bildirdi ki, hər bir problem ətraflı öyrəniləcək və onlar mütləq zaman-zaman öz həllini tapacaqdır. Qeyd etdi ki, kəndin ağsaqqalları mövcud problemləri daha ətraflı və daha yaxşı bilirlər. Ona görə də bu qəbildən olan insanlarla görüşmək və mövcud problemlərin həlli istiqamətində təkliflər hazırlamaq lazımdır.

Daha sonra cənab Başçı aprelin əvvəllərində ermənilərə qarşı döyüşlərdə mərdliklə şəhid olmuş Mühüd Orucovun ailəsinə baş çəkdi. Mühüdün atası Qurban kişi və anası Sima xanımla çox səmimi görüşərək onlara öz dərin ehtiramını bildirdi. Hər zaman şəhid ailəsinin yanında olacağını, yüksək səviyyədə diqqət və qayğı göstərəcəyini qeyd etdi.

Dağlar qoynunda yerləşən Alpout və Abbasbəyli kəndlərinin də illərdən bəri yığılıb qalan problemləri də az deyildir. Mövcud çatışmazlıqları öyrənmək və yaranmış problemləri aradan qaldırmaq məqsədilə rayon rəhbərliyi adı çəkilən kəndlərdə də görüş keçirdi. Kənd sakinləri rayon rəhbərliyini səmimi salamladıqdan sonra onları narahat edən problemlərdən danışdılar. Kənd ağsaqqalı Əhəd Vəliyev çıxış edərək rayon rəhbərliyinə onlarla görüşə gəldiyi üçün kənd sakinləri adından öz minnətdarlığını bildirdi.

Rayon rəhbərliyi kənd sakinləri ilə söhbəti zamanı bildirdi ki, bu gün ölkəmizdə digər sahələrə olduğu kimi kənd təsərrüfatına da böyük diqqət və qayğı göstərilir. Hazırda torpaq, su və kənd təsərrüfatının digər sahələrinin inkişafı ilə əlaqədar dövlət proqramları hazırlanır. Yaxın günlərdə onların icrasına başlanılacaqdır.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Bala Cəfərli kəndində də kənd sakinləri ilə görüş keçirdi. Çıxışı zamanı vurğuladı ki, “Siz qəhrəman camaatsınız. Düşmənlə bir addımlıqda yaşamağınıza baxmayataq həmişə mərd və mübariz olmusunuz. Şəhidlər vermisiniz. Mən bütün şəhid analarının qarşısında baş əyirəm”. Sonra rayon rəhbərliyi şəhid İbrahim İbrahimovun həyat yoldaşı Nərminə Quliyeva ilə görüşərək onun qayğıları ilə maraqlandı. Görüş zamanı Rəcəb Babaşov bildirdi ki, problemlər mövcuddur və onların həlli istiqamətində işlər görülür. Süründürməçilik və digər neqativ hallar qəti şəkildə aradan qaldırılmalıdır. Vətəndaşların qaldırdıqları məsələlər qısa müddətdə öz həllini tapmalıdır. Bütün sahələrdə, arayış almaqdan ən yüksək səviyyələrə qədər operativlik və şəffaflıq təmin olunmalıdır. Bu gün əhalinin sərhəd kəndində yaşamasına baxmayaraq onların heç biri bizdən çörək istəmir. Atəş altında yaşayan camaata yalnız qayğı və diqqət lazımdır.



Görüş iştirakçılarından Telman Kosayev çıxış edərək rayon rəhbərliyinə yeni başladığı bu çətin və şərəfli vəzifədə sakinlər adından uğur arzuladı. Sakinlərdən Zilfi Məmmədova, Akif Süleymanov və başqaları çıxış edərək kənddə yol, suvarma və içməli su problemlərinin olduğunu qeyd etdilər. Eyni zamanda bildirdilər ki, kənddə bir avtobus dayanacağı var. Başqa birisinə də ehtiyac duyulur. Bununla yanaşı düşmənlə üz-üzə yerləşən kənddə rabitə çox zəifdir. Təhlükə altında olan evlərə istinad divarlarının çəkilməsi vacibdir.



Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşə yekun vuraraq qaldırılan məsələlərin qısa müddətdə həll ediləcəyini bildirdi. Qeyd etdi ki, indiyə qədər mövcud olan laqeyd münasibətlərə son qoyulmalıdır. Bilin ki, sizin qaldırdığınız məsələlərə mən biganə qalmayacağam.

Sonra Rəcəb Babaşov kənd sakini Nuriyə Qasımovanın evinə baş çəkdi. Onu narahat edən məsələləri yerindəcə öyrəndi. Düşmənin atəş nöqtəsinə yaxın bir məsafədə yerləşən bu evin qarşısına sabahdan istinad divarının çəkilməsi barədə göstəriş verdi. Eyni zamanda evin təmir olunmasını, şifer və pəncərə şüşələrinin verilməsini tapşırdı. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov günün son görüşünü Cəfərli kənd sakinləri ilə keçirdi. Şəhid Elman Musayevin oğlu Firuz Musayevlə görüşdü və qayğıları ilə maraqlandı. Rəcəb Babaşov görüş zamanı bildirdi ki, “Mən mövcud problemləri öz gözlərimlə görmək üçün sizinlə görüşə gəlmişəm. Bu gün tələb və təlabat başqadır. Ona görə də hər bir dövlət məmuru öz fəaliyyətinə yenidən baxmalı və dönüş etməlidir”. Rayon rəhbərliyi bildirdi ki, bu gün Qazaxda “Camaat torpaqdan qaçır” fikri formalaşdırılıb. Amma elə deyil. Camaatın torpaqla məşğul olması üçün şərait yaradılmalıdır. Onun texnikası, suvarma suyu olmalıdır. Əks halda kəndli torpaqdan üz çevirəcəkdir.



Kənd ağsaqqalı Sabir Vəliyev kənd sakinləri adından çıxış edərək Rəcəb Babaşova xoş gəldiniz dedi və camaatın yalnız bir problemi olduğunu bildirdi. Qeyd etdi ki, o da yol problemidir. Kənd sakinlərindən Rəfael İsgəndərov, Murad Musayev, Dilşad Məhərrəmova, Məzahir Mustafayev və başqaları söz alaraq qarşılaşdıqları problemlər barədə danışdılar. Qeyd etdilər ki, biz demək istədiklərmizi siz bizə dediniz. Bu da ondan irəli gəlir ki, siz problemləri daha dərindən bilirsiniz.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov qaldırılan problemləri diqqətlə dinlədi və müvafiq tapşırıqlar verdi. Tapşırdı ki, bütün sərhəd kəndlərində əhaliyə tibbi xidmət göstərmək üçün həkim briqadası yaradılsın və onlar ayda bir dəfə kəndlərdə olsunlar.

Sonra Rəcəb Babaşov düşmənlər tərəfindən evinə ciddi ziyan dəymiş kənd sakini Vidadi Aslanovun evinə baş çəkdi. Kömək göstəriləcəyini bildirdi.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov növbəti günü görüşlərə yenə də sərhəd kəndlərindən başladı. Düşmənlə çox qısa bir məsafədə sərhəddə yerləşən Kəmərli kəndində keçirilən görüşdə də problem və qayğılardan danışıldı.

Rayon rəhbərliyi kənd sakinləri ilə söhbət zamanı bildirdi ki, mənə sərhəd kəndlərində olan problemlər məlumdur. Bu gün mən həm sizinlə tanış olmağa, həm də problemləri sizin öz dilinizdən eşitməyə gəlmişəm.



Kənd ağsaqqalları İbrahim Orucov və Rəhim Rəhimov söz alaraq rayon rəhbərliyinə xoş gəldin dedilər. Neçə illərdir ki, düşmənlə üz-üzə mərd dayandıqlarını, lazım gələndə düşmənə layiqli cavab verdiklərini söylədilər. Görüşdə problemlərdən də danışıldı. Sakinlərdən Mansur Qəhrəmanov, Cəvahir Əsgərova və başqaları çıxış edərək daha bir artezian quyusuna ehtiyac olduğunu bildirdilər. Bununla yanaşı suvarma suyunda da problem yaşandığı bildirildi.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov kənd qəbirstanlığına gələrək Hürü Qəhrəmanovanın oğlu, şəhid Mübariz Qəhrəmanovun qəbrini ziyarət etdi.

(Ardı səh.3-də)

# "MƏN SİZİNLƏ BİR YERDƏ OLACAĞAM"

## RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI RƏCƏB BABAŞOVUN KƏNDLƏRDƏ KEÇİRDİYİ GÖRÜŞLƏRDƏ BU FİKİR SƏSLƏNMİŞDİR



Sonra rayon rəhbərliyi kənd xəstəxanasında oldu. Xəstəxananın mövcud şəraiti ilə tanış olduqdan sonra lazımi tapşırıqlar verdi.

Həmin gün növbəti görüş Qaymaqlı kəndində oldu. Burada da kənd sakinləri rayon rəhbərliyini çox səmimi qarşıladılar. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək icra başçısı təyin olunduğu gündən keçən qısa zaman kəsiyində gördüyü işlərdən danışdı. Qeyd etdi ki, rayonda suvarma və içməli suya, yeni maşın mexanizmlərinə, kanalizasiyaya, xəstəxana binasına ehtiyac vardır. "Mən bu problemləri dərindən öyrənib sistemləşdirmiş, respublikanın aidiyyəti qurumları qarşısında konkret məsələlər qaldırmışam. Suallar öz cavabını gözləyir. Bəzən mənə köməklik göstərərik deyirlər. Mən isə həmin cavabdeh şəxslərə bildirirəm ki, bizə köməklik deyil, problemin köklü şəkildə həlli lazımdır. Problem vaxtında həll olunmayanda problem üstünə problemlər gəlir. Ona görə də çatışmazlıqlar yerində öyrənilməli və vaxtında həll olunmalıdır. Hər bir dövlət məmurunun birinci vəzifəsi vətəndaşlara nümunəvi xidmət göstərməkdir".



Kənd ağsaqqalı Murad Süleymanov çıxış edərək sakinlər adından rayon rəhbərliyinə yeni başladığı bu çətin və şərəfli işdə uğurlar arzuladı. Bildirdi ki, kəndimizin camaatı işləyən, qanunu sevən və ziyalı bir camaatdır. Söylədi ki, cənab başçı sizin çıxışınıza qulaq asdıqdan sonra bizə məlum oldu ki, siz bizim problemləri bizim özümüzdən də yaxşı bilirsiniz. Ona görə də bizə danışmağa söz qalmadı. Kənd sakinlərindən Kazım Kazımov mədəniyyət evinin təmirinə, Əmirxan Bəşirov əkin və biçin haqlarının bir qədər azaldılmasına, su probleminin aradan qaldırılmasına ehtiyac olduğunu söylədilər.

Çıxış edən kənd sakinlərini diqqətlə dinləyən rayon rəhbərliyi görüşə yekun vuraraq qeyd etdi ki, "Kənddə problemlər yetərincə qədər var. Amma bu, bizim əl-qolumuzu bağlamamalıdır. Ona görə də elə ilk gündən mən öz fəaliyyətimi bu istiqamətdə qurmuş və problemlərin həllinə nail olmaq üçün var qüvvəmlə çalışıram".

Günün sonuncu görüşü isə Aslanbəyli kəndində oldu. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşdə çıxış edərək bildirdi ki, mən kəndlərdəki problemləri bilirəm. Amma istəyirəm ki, sizin öz dilinizdən eşidim. Qeyd etdi ki, "Biz xalqa xidmət etməliyik. Problemlər var, lakin onun həlli də var. Elə işlər var ki, o icra nümayəndəliyi səviyyəsində həll olunmalıdır. Elə problemlər də var ki, icra başçısı səviyyəsində öz həllini tapmalıdır. Rayonda neqativ hallara birdəfəlik son qoyulmalıdır".

Görüşdə problemlərdən də danışıldı. Kənd sakinlərindən Abdulla Umudov, Mövlud Həsənov, Əhməd Məmmədov, Vilayət Omarov, Elnur Həsənov və başqaları çıxış edərək kənddə mövcud olan suvarma suyu problemindən, maşın mexanizmlərinin az olmasından danışdılar. Bu problemlərin həll olunması üçün rayon rəhbərliyindən kömək istədilər.



Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək bildirdi ki, "Aslanbəyli kəndində su problemi köklü surətdə həll olunmalıdır. Bir ədəd artezian quyusu qazmaqla, bir mator işlətməklə bu problem köklü surətdə öz həllini tapa bilməz. Yaranmış vəziyyət onu göstərir ki, problemlərə vaxtilə laqeyd münasibət bəslənmişdir. Bu da nəticədə sizin haqlı narazılığınıza səbəb olmuşdur. Ona görə də ilk növbədə əhali ilə rayon rəhbərliyi arasında yaranmış boşluq aradan götürülməli, münbit iş şəraiti yaradılmalı və süründürməçilik hallarına son qoyulmalıdır. Belə olan halda mövcud problemlər öz müsbət həllini tapacaq, çatışmazlıqlar zaman-zaman aradan qaldırılacaqdır".

Növbəti görüşlərdən biri rayonumuzun ən böyük yaşayış məntəqələrindən olan Kosalar kəndində baş tutdu. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovu kənd sakinləri böyük ruh yüksəkliyi və səmimiyyətlə qarşıladılar. Elə rayon rəhbərliyi ilə kənd camaatı arasında olan söhbət də çox açıq və səmimi oldu. Rəcəb Babaşov qısa müddət ərzində rayonumuzda planlaşdırılan işlərdən, həyata keçirilən tədbirlərdən, respublikanın ayrı-ayrı qurumları qarşısında rayonun problemlərinin həlli istiqamətində qaldırılan məsələlərdən danışdı. Qeyd etdi ki, "Bu görüş həm tanışlıq məqsədi daşıyır, həm də mən mövcud problemləri sizin öz dilinizdən eşitmək istəyirəm". Qarşıda duran vəzifələrdən, rayonda gələcəkdə həyata keçiriləcək tikinti-quruculuq işlərindən danışıldı. Rayon rəhbərliyi Kosalar kəndində yaşayan 5 şəhid ailəsindən söz açaraq onlara böyük hörmət və ehtiramının olduğunu bildirdi. Rayonumuzdakı Şəhidlər Xiyabanından söz açan icra başçısı orada görülən abadlıq işlərindən danışdı. İndiyə qədər göstərilən laqeydliyin aradan qaldırıldığını qeyd etdi.



Kənd sakini, AYB Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi Barat Vüsal çıxış edərək onlarla görüşə gəldiyinə görə kənd sakinləri adından rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova dərin minnətdarlığını bildirdi. Qeyd etdi ki, kəndimizə asfalt çəkilməsi problemi uzun illər idi ki, qaldırılmışdı. Müxtəlif vaxtlarda bu problemin həll olunacağı barədə sözlər də verilmişdi. Lakin sizinlə görüşdən dərhal sonra kəndimizə asfalt çəkilməsi istiqamətində işlərin başlandığını görəndə düzü gözlərimizə inanmadıq. Bu, bütün kənd sakinlərinin ürəyincə oldu. Biz gördük ki, siz qaldırılan problemə çox həssaslıqla yanaşır və yerindəcə həll edirsiniz.

Kənd sakinlərindən İsmayıl Əhmədov, İradə Süleymanova, Etibar Məmmədrzayev, Cavanşir Rüstəmov, Qurban Ocaqquliyev, Tariyel Nəsibov, Zülfüqar Hüseynov, Məqsəd Qurbanov və başqaları söz alaraq öz şəxsi problemləri barədə danışdılar.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov sakinlər tərəfindən qaldırılan hər bir məsələyə diqqətlə yanaşaraq yerindəcə aidiyyəti qurum və təşkilatlara tapşırıqlar verdi.

Sonra rayon rəhbərliyi şəhid Kərim Əsgərovun anası Raya Əsgərovanın evinə baş çəkib və onun qayğıları ilə maraqlandı.

Canalı kəndində də görüş işgüzar şəraitdə keçdi. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov sakinləri salamladıqdan sonra "Mən sizin yanınıza həm tanış olmağa, həm də həqiqəti öyrənməyə gəlmişəm. Görək bizim problemlərimiz hansılardır? Onları araşdıraq və sizinlə bir yerdə həll edək".



Canalı kənd tam orta məktəbin direktoru Ulduzə Yusifova öz çıxışında rayon rəhbərliyinə xoş gəldin deyərək gələcək quruculuq işlərində uğurlar arzuladı.

Görüşdə kənd sakinlərindən Arifə Nəsibova, ağsaqqallardan Bahadır Əliyev və başqaları söz alaraq onları narahat edən bir sıra problemlərdən danışdılar. Bildirdilər ki, artıq taxıl biçini yetişib. Amma kombayn istənilən qədər deyil. Taxıl çox baha qiymətə biçilir. Götürülən məhsul çəkilən zəhməti ödəmir.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov yerində göstəriş verərək bu problemin tez bir zamanda həll edilməsini tapşırdı. Eyni zamanda kəndlərdə əhalini tibbi müayinə etmək üçün həkim briqadalarının təşkil olunmasının vacibliyini bildirdi. Qeyd etdi ki, qısa müddət ərzində artıq bir sıra neqativ hallar aradan qaldırılmışdır. Bağçaların ərzaqla, tibb məntəqələrinin isə dərmanla təchizatında mövcud olan neqativ hal birmənalı şəkildə aradan götürülmüşdür.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov görüşün sonunda bildirdi ki, "Rayonda kifayət qədər problemlər var. Bunlar isə bir günə, beş günə həll olunası deyil. Mövcud problemlər sizlərin köməkliyi ilə zaman-zaman aradan qaldırılacaqdır".

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun kəndlərdə keçirdiyi görüşlər davam edir. Bu barədə qəzetimizin növbəti sayında oxuculara ətraflı məlumat veriləcəkdir.

**Elçin İSMAYIL**

# MƏZƏM KƏNDİNDƏ İSTİNAD DİVARLARI TİKİLİR



**Qazax rayonu Ermənistanla 168 km məsafədə sərhəddə yerləşir. Rayonumuzun 5 kəndi daim mənfur qonşularımız tərəfindən atəşə məruz qalır. Bu da həmin kəndlərdə əhalinin dinc yaşamasına mane olur. Ötən müddət ərzində daim atəşə məruz qalan kəndlərimizin sakinləri şəhidlər vermiş, onlarla insan yaralanmış, evlər dağıdılmışdır.**

Düşmən atəşinə daim məruz qalan kəndlərimizdən biri də Məzəm kəndidir. Təcavüzkarların atəş nöqtələrinə ən yaxın məsafədə yerləşən Məzəmdə elan olunmamış müharibənin ağrı-acıları bu gün də yaşanmaqdadır. Mənfur qonşularımızın kəndi daim atəşə tumasının nəticəsidir ki, buradakı evlərin əksəriyyətinin üstündə güllələrin izləri vardır. Bu da əhalinin rahat yaşamasına imkan vermir. Dinc sakinlərin normal həyat şəraitini pozur.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Məzəmdə görüşdə olan zaman kənd sakinləri kəndin aşağı hissəsinin düşmənin atəş nöqtələrinə çox yaxın olduğunu və bunun təhlükə yaratdığını bildirmişdilər. Yaranmış təhlükəli vəziyyətin aradan qaldırılması üçün həmin evlərin qarşısına istinad divarlarının çəkilməsinin vacibliyini qeyd etmişdilər.



Rəcəb Babaşov elə həmin görüşdə düşmənin hər an atəş aça biləcəyini və bunun insan təlafatı, yaralanması ilə başa çatacağını nəzərə alaraq təhlükəli yerlərdə yerləşən evlərin qarşısına istinad divarlarının çəkilməsi ilə əlaqədar göstəriş vermişdi.

Artıq Məzəm kəndində rayon rəhbərliyinin verdiyi göstəriş öz əməli təsdiqini tapmaqdadır. Belə ki, Məzəm kəndinin aşağı hissəsində yerləşən, düşmənin atəş nöqtəsinə ən yaxın olan evlərin qarşısında istinad divarlarının çəkilməsinə başlanılmışdır. Bu, həmin evlərin düşmən gülləsinə məruz qalmasının və eyni zamanda insan təlafatı olmasının qarşısını alır. İşlərin sürətlə getməsinin nəticəsidir ki, artıq kəndin bir neçə evinin qarşısında istinad divarının çəkilməsi başa çatdırılmışdır.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bu günlərdə Məzəm kəndində olmuş, evlərin qarşısına çəkilən istinad divarlarına baxmışdır. Rayon rəhbərliyi ilk əvvəl kənd sakini Qədir Süleymanovun evinə getmişdir. Düşmənin atəş nöqtəsinə yaxın bir məsafədə yerləşən bu evin qarşısına uzunluğu 50 metr, hündürlüyü 3 metr olan istinad divarı çəkilmişdir. Bu divar artıq həmin evi düşmən atəşindən tam şəkildə qoruyur. Q.Süleymanov və ailə üzvləri rayon rəhbərliyinə minnətdarlıqlarını bildirərək uzun illərdən sonra artıq öz evlərində heç bir təhlükə olmadan yaşadıqlarını bildirmişlər.



Evlərinin qarşısına istinad divarları çəkilmiş kənd sakinlərindən Məmməd Əliyev, Hidayət Qasımov, Zeynəb Yolçuyeva da Rəcəb Babaşova ailə üzvləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər.

Sonra icra başçısı şəhid atası Dursun Məmmədovun evinə baş çəkmiş və burada inşa edilən 46 metr uzunluğunda istinad divarının çəkilişi ilə maraqlanmışdır. Ev sahibi işin sürətlə getdiyini bildirərək minnətdarlıq etmişdir.

Daha sonra icra başçısı düşmənin atəş nöqtəsinə yaxın olan başqa evlərə də baş çəkmişdir. Rəcəb Babaşov Məsim Qasımovun, Sarif Rəhimovun, Mikayıl Osmanovun və başqalarının evlərinin qarşısına da istinad divarlarının çəkilməsini tapşırmışdır.

Kənd sakinləri rayon rəhbərliyinə onlara göstərdiyi bu diqqət və qayğıya görə bir daha öz dərin minnətdarlıqlarını bildirmişlər.

**Elçin İSMAYIL**

# Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov Qazax rayonunda olmuşdur



**Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax və Zaqatala filialları barədə" 29 aprel 2016-cı il tarixli Sərəncamına əsasən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialı Bakı Dövlət Universitetinin Qazax filialı hesab edilmişdir.**

Bu münasibətlə Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov Qazax rayonunda olmuşdur. A.Məhərrəmov əvvəlcə rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovla görüşmüş, ulu öndər Heydər Əliyevin əziz xatirəsi anılmış və abidəsi önünə gül-çiçək dəstələri qoyulmuşdur.

Sonra rayon rəhbərliyi və qonaqlar Bakı Dövlət Universitetinin Qazax filialı ilə tanış olmuşlar. Tanışlıq zamanı rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov və Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov sərəncam münasibətilə filialın müəllim və tələbə kollektivini təbrik etmiş, onlara təhsildə yeni-yeni uğurlar arzulamışlar.

Bildirilmişdir ki, Ölkə Prezidenti İlham Əliyev cənabları regionların sosial-iqtisadi inkişafı üçün yüksək ixtisaslı kadrlara tələbatı tam təmin etmək, bölgələrdə yaşayan gənclərin seçdikləri ixtisaslar üzrə keyfiyyətli ali təhsilə çıxış imkanlarını genişləndirmək, təhsil müəssisələrinin maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədilə bu sərəncamı vermişdir. Bu, təhsilimizə, gənclərimizə Ölkə Prezidentinin göstərdiyi qayğının yeni bir təzahürüdür.

Sonra qonaq universitetinin kafedraları ilə yaxından tanış olmuş, iş şəraiti ilə maraqlanmışdır.

Sonda təhsil müəssisəsinin müəllim və tələbə kollektivi ölkə prezidentinə dərin minnətdarlıqlarını bildirmiş, daha səylə çalışacaqlarına və oxuyacaqlarına əminlik ifadə etmişlər.

# Rayonumuzda ictimai dinləmələr keçirilmişdir

**Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının icrası, təbliği və tətbiqi vəziyyətinin monitorinqi ilə bağlı Ombudsman Elmira Süleymanova Qazax rayonunda ictimai dinləmələr keçirmişdir.**

İctimai dinləmə rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, dövlət qurumlarının, bələdiyyələrin, habelə icmaların, o cümlədən milli azlıqların nümayəndələrinin, geniş ictimaiyyətin, QHT-lərin və KİV-in təmsilçilərinin, fəal qadınların və gənclərin iştirakı ilə təşkil olunmuşdur.

İlk öncə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət olunmuş, ulu öndərin abidəsi önünə tər çiçəklər qoyulmuşdur.

Qazax rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev tədbiri açaraq, ictimai dinləmənin əhəmiyyətini vurğulamış, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstək və qayğısı nəticəsində bütün ölkəmizdə, o cümlədən Qazaxda geniş tikinti-abadlıq və quruculuq işlərinin davam etdirildiyini bildirmişdir.

O, insan hüquqlarının müdafiəsinin vacibliyini və "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın (MFP) əhəmiyyətini qeyd edərək, rayonda bu sahədə görülmüş işlərlə bağlı ətraflı məlumat vermişdir.

Ombudsman E.Süleymanova çıxış edərək Qazaxda keçirilən ictimai dinləmələrin məqsəd və məramını, əhəmiyyətini qeyd etmiş, dini və milli tolerantlığın hökm sürdüyü, Multikulturalizm ili elan olunduğu Azərbaycanda iqtisadi, sosial və digər sahələrdə sürətli inkişafın davam etdiyini, insan hüquqlarının müdafiəsinin dövlətin diqqətində olan prioritet məsələlərdən olduğunu vurğulamışdır.



Ombudsman 2011-ci ildə dövlət başçısının Sərəncamı ilə təsdiq olunmuş MFP-nin 2006-cı ildən uğurla həyata keçirilən İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının məntiqi davamı olaraq, yeni istiqamətlər və tədbirlər müəyyən etdiyini bildirmiş, Azərbaycanda insan hüquqlarının təmin olunmasının prioritet məsələlərdən olduğunu diqqətə çatdırmışdır. Dövlətimizin humanist siyasəti nəticəsində ölkəmizdə son illərdə 61 əfv sərəncamının və 11 amnistiya aktının, bu amnistiya aktlarından dördünün Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunduğu, sonuncu amnistiyanın 10 min məhkuma şamil edildiyi, 3500 məhkumun azadlığa çıxacağı diqqətə çatdırılmışdır.

Müvəkkil təsisatın fəaliyyəti barədə ətraflı məlumat vermiş, hüquqi maarifləndirmə tədbirləri, ali məktəblərdə insan hüquqları, gender fənlərinin tədris olunduğunu, habelə orta məktəblərdə uşaq hüquqları üzrə pilləli tədris layihəsinin Bakıda və regionlarda, o cümlədən bu il Qazax şəhər 1 saylı tam orta məktəbində uğurla davam etdirildiyini söyləmişdir.

Səfər çərçivəsində E.Süleymanova Qazax Müalicə Diaqnostika Mərkəzində, ruhi xəstəxanada və doğum evində olmuş, tibb müəssisələrinin uğurlu fəaliyyəti barədə məlumat almışdır. Bundan başqa, "N" saylı hərbi hissədə və onun ön xətdə yerləşən divizionlarından birində əsgərlərin yaşayış şəraiti ilə tanış olmuşdur.

Tədbir iştirakçıları "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən, ölkəmizin bütün rayonlarına, o cümlədən Qazaxa da göstərdiyi qayğıya görə Ölkə Prezidentinə minnətdarlıqlarını bildirmiş, MFP-nin icrası məqsədilə əhalinin fəal iştirakı, təşkil olunan ictimai dinləməyə və interaktiv müzakirələrin aparılmasına görə Müvəkkilə təşəkkür etmişlər.

Tədbirin sonunda iştirakçılara MFP-nın hər il üzrə icra vəziyyəti ilə bağlı nəşr olunan kitablar, MFP-nin nüsxələri, İctimai iştirakçılıq haqqında qanunvericilik, Ombudsman təsisatı tərəfindən hazırlanmış digər maarifləndirici vəsaitlər təqdim olunmuşdur.

**Nüşabə HÜSEYNOVA**

# Tələbələr üçün "Hilal" mükafatı təsis edildi




**Son illər ölkəmizdə dövlət tərəfindən yüksək təhsilli gənclərin yetişməsi yönündə təhsilə xüsusi önəm və diqqət yetirilir. Bu məqsədlə Təhsil Nazirliyi və Heydər Əliyev Fondu təhsil strategiyasına uyğun olaraq məqsədyönlü şəkildə uğurlu işlər həyata keçirir.**

Məlumdur ki, təhsildə uğurlu nəticələrin əldə edilməsi üçün isə cəmiyyət daim dövlətin təhsil siyasətinə dəstək olmalıdır. Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyeva 27 fevral 2014-cü il tarixdə "Məktəbəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı"nın təqdimatında üzünü iş adamlarına tutaraq "Mən hesab edirəm ki, ölkəmizdə hər bir iş adamı mövcud sosial problemlərin həllində iştirak etməyə çalışmalıdır" çağırışı ilə ölkədə fəaliyyət göstərən özəl sektorda çalışan iş adamlarını təhsilə, orta məktəblərə diqqət ayırmağa, qayğı göstərməyə çağırdı.

Mehriban xanım Əliyevanın bu çağırışından sonra sahibkar və iş adamlarının orta məktəblərə, təhsilə marağı və diqqəti artdı. 10 may 2016-cı il tarixdə iş adamı, "Hilal Group" MMC-nin prezidenti Arzuman Abdulkərimov təhsil sahəsində fərqlənən istedadlı şagirdlərə xüsusi diqqət və qayğı göstərmək məqsədilə şirkət adından "Hilal" mükafatını təsis etmişdir. Mükafatlandırılmanın keçirilməsində əsas məqsəd şagirdlərin təhsilə, elmə marağının artırılmasını, eyni zamanda, məktəblərdə şagirdlər arasında rəqabət mühitinin stimullaşdırılmasını təmin etməkdir. Mükafat Qazax rayonu üzrə tam orta məktəblərin abituriyentləri içərisindən ən yüksək bal toplayaraq ali məktəblərə qəbul olunan tələbələrin və ən yüksək balla Bakı Dövlət Universitetinin Qazax filialına qəbul olmuş yerli qeydiyyatlı məzun tələbəyə təqdim ediləcəkdir.

Mükafatlandırılmanın keçirilməsi üçün təsisçi tərəfindən beş nəfərdən ibarət Təşkilat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsinin tərkibinə təhsil, elm, mədəniyyət və pedaqoji sahədə təcrübəsi olan şəxslər daxil edilmişdir. Mükafatlandırılma ildə bir dəfə Dövlət İmtahan Mərkəzinin ali məktəblərə ixtisas yerləşdirilməsi başa çatdıqdan sonra təsisçi və Təşkilat Komitəsi tərəfindən həyata keçirilir. Mükafatlandırılmada Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda iştirak edən, 550-dən yuxarı bal toplamış və ali məktəblərin müvafiq ixtisasına yerləşdirilmiş tələbələr iştirak edə bilər.

Mükafatlandırma iki nominasiya üzrə: Ən yüksək bal toplamış abituriyent nominasiyası üzrə (1-ci, 2-ci, 3-cü yer) və ən yüksək balla Bakı Dövlət Universitetinin Qazax filialına qəbul olmuş yerli qeydiyyatlı məzun tələbə.

Birinci nominasiya üzrə 1-ci yerin qalibinə - 1000 manat; 2-ci yerin qalibinə - 800 manat; 3-cü yerin qalibinə - 700 manat pul mükafatı və diplomlar təqdim ediləcəkdir. İkinci nominasiya üzrə isə ən yüksək balla Bakı Dövlət Universitetinin Qazax filialına qəbul olmuş yerli qeydiyyatlı tələbəyə 500 manat pul mükafatı və "Fəxri Fərman" təqdim ediləcəkdir.

Təsisçi tərəfindən 2016-cı il "Hilal" mükafatlandırılması üzrə Təşkilat Komitəsinə beş nəfərdən ibarət heyət seçilmişdir:

1. Kamran Nəbizadə - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, iqtisadiyyat üzrə fəlsəfə doktoru;
2. Rüstəm Kamal - Bakı Slavyan Universitetinin professoru, filologiya elmlər doktoru;
3. Fəridə Ləman - AMEA-nın aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, şair-publisist;
4. Məmməd Yusifov - BDU-nun Qazax filialının direktor müavini, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent;
5. Yusif Alıyev - Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun şöbə müdiri, AMEA-nın aparıcı elmi işçisi, fizika üzrə fəlsəfə doktoru, dosent.

Gələcəkdə "Hilal" mükafatının həm də Respublika üzrə ən yüksək bal toplamış tələbələr üçün də verilməsi planlaşdırılır.

*** *** ***

Qazax rayon İcra Hakimiyyəti, rayon Təhsil şöbəsi və "Hilal Group" MMC-nin birgə təşkilatçılığı ilə Ədəbiyyat Muzeyində "Hilal Grop" MMC tərəfindən təsis edilən "Hilal" mükafatının rəsmi təsis toplantısı keçirilmişdir. Tədbirdə rayon İcra Hakimiyyıtinin əməkdaşları, təhsil şöbəsinin işçiləri, rayon üzrə 34 tam orta məktəbin direktor və direktor müavinləri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan "Hilal Group" MMC-nin nümayndəsi, təşkilat komitəsinin üzvü, dosent Yusif Alıyev "Hilal" mükafatlandırılması haqqında geniş məruzə etmişdir.

Sonra çıxış edən tədbir iştirakçıları "Hilal" mükafatının təsis edilməsini yüksək qiymətləndirmiş, Qazax rayonunda təhsilin inkişafına təkan verəcəyini qeyd etmişlər.

**Elçin İSMAYIL**




# MƏKTƏBLƏRDƏ "SON ZƏNG" ÇALINDI

**Rayonumuzun 34 ümumtəhsil məktəbində "Son zəng" tədbirləri keçirilmişdir. 2015-16-cı tədris ilində 856 nəfər məzun orta məktəbləri bitirmişdir. Son zəng tədbiri Azərbaycan Respublikası Təhsil Nazirliyinin 9 iyun 2016-cı il tarixli, 399 №-li əmrinə müvafiq olaraq məktəblərdə yüksək səviyyədə təşkil edilmişdir. Tədbirlərdə Qazax rayon İcra Hakimiyyəti Başçısı aparatının və rayon təhsil şöbəsinin nümayəndələri iştirak etmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov şəhər 1 saylı tam orta məktəbdə təşkil olunmuş tədbirdə iştirak etmişdir. Rayon rəhbərliyi məzunları orta məktəbi bitirmələri münasibətilə təbrik etmiş, valideyn və müəllimlərə səmimi arzularını bildirmişdir. Respublika təhsilinə, o cümlədən Qazax rayonunun təhsilinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları və Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva təfərindən göstərilən diqqət və qayğıdan danışmış, təhsilimizin uğurlarından və qarşıda duran vəzifələrdən söz açmışdır. Məktəbi bitirən məzunların yüksək bal toplayaraq respublikanın ali məktəblərinə, universitetlərinə daxil olacaqlarına əmin olduğunu bildirmişdir.

Məktəbin direktoru Bəsti Ələkbərova çıxış edərək Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova gərgin iş rejimindən vaxt ayırıb məzunları təbrikə gəldiyi üçün məktəb kollektivi adından öz dərin minnətdarlığını bildirmişdir.

Rayon təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, tarix müəllimi Mustafa Mirzəyev və başqaları çıxış edərək məzunları təbrik etmiş, müstəqil həyatda onlara uğurlar arzulamışlar.

Sonra rəmzi olaraq son zəng çalınmışdır. Bu zəng məzunları yeni bir həyata səsləmişdir.

**Xuraman ƏZİMOVA**

# Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov rayonumuzda 5 rayonun sakinləri ilə görüşmüşdür

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov Qazax rayonunda bu rayonun və Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.**

Vətəndaşların müraciətlərində məşğulluğun təminatına və bərpa müalicəsinə kömək göstərilməsi, imtiyazlı şəxslərin mənzillə təmin edilməsi, əmək hüquqlarının müdafiəsi, əmək pensiyasına hüququn müəyyən olunması və s. məsələlər əhatə olunub. Nazirliyin aidiyyəti struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə hər bir müraciət obyektiv şəkildə araşdırılaraq cavablandırılıb, müvafiq hallarda vətəndaşlara hüquqi izahatlar verilib. Bir sıra müraciətlərdə qaldırılan məsələlərin həlli ilə bağlı elə yerindəcə tədbirlər görülüb. Vətəndaşların bir qisminin müraciətlərinə əsasən onların və ya yaxınlarının bərpa müalicəsinə köməklik göstərilməsi üçün onlar qeydiyyata alınıb, bir sıra vətəndaşlar münasib iş yerlərinə göndərişlə təmin olunublar. Həmçinin əmək hüquqlarının müdafiəsi, əmək pensiyası hüququnun müəyyən olunması və s. ilə bağlı qaldırılan məsələlərin araşdırılması və qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülməsi barədə tapşırıqlar verilib.



Mənzillə təmin olunmaq barədə müraciətləri cavablandırarkən S.Müslümov Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzil tikintisinə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini vurğulayıb: "Dövlət başçısının 2014-cü il 20 iyun tarixli Sərəncamı bu sahədə işlərin geniş vüsət almasına imkan yaradıb, keçən il və cari ilin ötən dövründə Bakıda və müxtəlif bölgələrimizdə 222 nəfəri Qarabağ müharibəsi əlili, digərləri şəhid ailələri olmaqla 451 nəfər nazirlik tərəfindən yeni mənzillərlə təmin olunub. Eləcə də həmin dövrdə Gədəbəy, Ağstafa, Qazax rayonları üzrə 16 fərdi yaşayış evi tikilərək müvafiq şəxslərin istifadəsinə verilib. Hazırda Qazax, Ağstafa, Şəmkir və Tovuz rayonlarında daha 20 ədəd fərdi yaşayış evi də tikilir və onlardan yarısında artıq tikinti işləri yekunlaşmaqdadır".

Vətəndaşların müraciətlərinin bir qismi də mənzil tikintisi üçün növbəyə dayanmaqla bağlı olub. Belə şəxslərə izah olunub ki, imtiyazlı şəxslərin yaşayış sahəsinə ehtiyacı olan şəxslər qismində növbəyə götürülməsi Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə əsasən, rayon (şəhər) İcra Hakimiyyətləri tərəfindən həyata keçirilir.

S.Müslümov artıq 3 aydır ki, ünvanlı sosial yardım sisteminin tam avtomatlaşdırılmış şəraitdə fəaliyyət göstərdiyini, artıq bu sahədə məmurla vətəndaş arasında təmasa imkan verən heç bir məqamın mövcud olmadığını qeyd edib: "Ona görə də son aylarda vətəndaşlar tərəfindən bu sahə ilə bağlı edilən müraciətlər dəfələrlə azalıb, edilən müraciətlər də əsasən sorğu xarakteri daşıyır. Bunu avtomatlaşdırılmış pensiya və tibbi-sosial ekspertiza sistemlərinə də aid etmək olar. Yəni bu gün həmin sahələrdə şəffaf xidmətlər sistemi fəaliyyət göstərir".

Qəbul zamanı vətəndaşlar sosial cəhətdən həssas əhali qruplarının həyat səviyyəsinin yaxşılaşdırılması, aztəminatlı ailələrin sosial müdafiəsi, əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası, müharibə əlilləri və şəhid ailələrinin mənzillə təminatı istiqamətində aparılan mühüm işlərə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Nazirliyin səlahiyyət dairəsinə aid olmayan məsələlərlə bağlı müraciətlər aidiyyəti qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Mədəniyyət və Turizm şöbəsinin kollektivi Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Solmaz Babanlıya, qardaşı

**AYDIN BABANLININ**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Qazax Mərkəzləşdirilmiş Kitabxana Sisteminin kollektivi mərkəzin direktoru Solmaz Babanlıya, qardaşı

**AYDIN BABANLININ**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

## İTMİŞDİR

Mərhum Osmanov Nizaməddin Osman oğlunun adına verilmiş JN-498 nömrəli torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

1996-1997-ci tədris ilində Qasımov Habil Tariyel oğlunun adına verilmiş 087644 nömrəli Attestat itdiyi üçün etibarsız sayılır.

İsmayılov Tural Dilbazi oğlunun adına verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Eyubova Qiyafət Nəriman qızının adına verilmiş 348 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

# TARİXİ TALEYİMİZİN QURTULUŞ SƏHİFƏSİ

## 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜ RAYONUMUZDA BÖYÜK TƏNTƏNƏ İLƏ QEYD EDİLMİŞDİR



***Demokratik dövlətin süqutundan sonra xalqımızın qəlbində azadlıq, müstəqillik arzuları daima yaşamış, lakin bu arzular yalnız 70-ci ildən sonra pöhrə verməyə başlamışdır. 90-cı illərin əvvəllərində yenidən müstəqilliyinə qovuşan respublikamız heç də tam müstəqil olmamış, bir dövlət kimi formalaşmamışdı. Yalnız 1993-cü ildə xalqın xahişi və tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanı bir dövlət kimi yenidən qurmağa başlamış, respublikamız sözün əsl mənasında öz müstəqilliyinə qovuşmuşdur. Ona görə də böyük bir həqiqətdir ki, müasir Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevdir. Məhz onun titanik fəaliyyəti, gecə-gündüz yorulmaq bilmədən çalışması sayəsində Azərbaycan xalqı öz müstəqilliyinə nail olmuş, bir dövlət və xalq kimi bütün dünyada tanınmışdır.***

Müstəqillikdən danışarkən ulu öndərin Vətən və Xalq qarşısında olan böyük xidmətlərini xüsusilə qeyd etmək lazımdır. Müstəqilliyimizin ilk illərində məhz Heydər Əliyev ölkəni gözləyən bütün təhlükələri dəf etməklə Azərbaycanın müstəqilliyinin möhkəm təməlini qoydu, xalqımızın azadlıq intibahının banisi oldu. Xalqımızın dahi oğlu Azərbaycanın taleyinin sınağa çəkildiyi zamanlarda xilaskarlıqdan başlamış müstəqil dövlətimizin yaradılması, möhkəmləndirilməsi və inkişafı kimi şərəfli missiyanı uğurla, uzaqgörənliklə, müdrikliklə yerinə yetirdi.




Biz xoşbəxtik ki, bu gün Heydər Əliyevin ideyaları yaşayır. Ölkəmiz ümummilli liderin müəyyən etdiyi yolla inkişaf edir, inamla gələcəyə doğru addımlayır. Bəli, bu gün çox böyük bir fərəh hissi ilə deyə bilərik ki, Heydər Əliyevin başladığı uğurlu daxili və xarici strategiya indi daha böyük rakursda, daha böyük anlamda davam etdirilir. Bu gün Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Cənubi Qafqazda lider ölkəyə çevrilən Azərbaycan sabaha doğru daha böyük, daha inamlı addımlarla irəliləyir. Heydər Əliyevin başladığı yolu ləyaqətlə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət müstəqilliyimizin siyasi və iqtisadi sütunlarını daha da əzəmətli edib. Ölkə Başçısının qətiyyəti sayəsində ulu öndərin yeni neft strategiyasının uğurla reallaşması, iri enerji layihələrinin işə düşməsi və yeni iqtisadi layihələrə start verilməsi Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir. Respublikamızın şəhər və kəndləri, qəsəbələri gündən-günə inkişaf edib böyüyür, daha da yaraşıqlı və abad olur. "Regionların sosial inkişafına dair Dövlət Proqramı çərçivəsində ölkənin bütün yaşayış məntəqələrinin siması dəyişir, xalqın maddi rifah halı yüksəlir, yaşamaq və işləmək daha da gözəl olur. Bütün bu inkişafın, tərəqqinin kökündə möhtərəm cənab Prezident İlham Əliyevin gərgin əməyi, xalqın və ölkənin rifahı və inkişafı naminə gördüyü misilsiz işlər durur.

15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar keçirilən ümumrayon tədbiri Heydər Əliyev adına parkda başladı. Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatı Kamran Nəbizadə və Ülviyyə Ağayeva, hüquq-mühafizə orqanlarının rəhbərləri, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin əmək kollektivləri, veteran və gənclər təşkilatlarının üzvləri, ictimaiyyətin müxtəlif təbəqələrinin və KİV nümayəndələri ulu öndərin adını daşıyan parka gələrək Heydər Əliyevin əzəmətli heykəli önünə gül dəstələri qoydular, ümummilli liderin böyük xatirəsini ehtiramla yad etdilər.

Sonra bayram tədbiri şəhərin mərkəzində davam etdi. Rayon Mədəniyyət Mərkəzinin qarşısı çoxdandır ki, belə əzəmət, belə qaynarlıq, belə coşqunluq görməmişdi. Həmin gün-iyun ayının 13-də buraya minlərlə insan toplaşmışdı. Hamının üzündə sevinc, qəlbində böyük bir məhəbbət, gözlərində qaynarlıq var idi. Qazax rayon İcra Hakimiyyətinin təşkil etdiyi bayram konsertinə demək olar ki, bütün rayon sakinləri toplaşmışdı. Mədəniyyət sarayının qarşısı sanki qaynayırdı. Milli Qurtuluş Günü münasibətilə keçirilən silsilə tədbirlər bu gün burada böyük konsert proqramı ilə davam etdirilirdi. Odur ki, böyük sevinc və fərəh hissləri yaşanırdı həmin gün. Nəhayət rayon İcra Hakimiyyətinin təşkil etdiyi böyük konsert proqramına start verildi.

Sonra Mədəniyyət Mərkəzinin qarşısında kitablardan və uşaqların əl işlərindən ibarət sərgiyə baxış keçirildi. Tədbir iştirakçıları məktəblilərin Milli Qurtuluş Gününə həsr etdikləri rəsmlərindən ibarət sərgiyə baxdılar. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablarla tanış oldular.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək bütün Azərbaycan xalqını, rayon sakinlərini Milli Qurtuluş Günü münasibətilə səmimi qəlbdən təbrik etdi.



Hörmətli qonaqlar! Əziz qazaxlılar,

XX əsrin son illəri Azərbaycan üçün taleyüklü sınaq məqamları ilə zəngin olmuşdur. İctimai-siyasi, iqtisadi və mənəvi sahələrdə əldə edilmiş nailiyyətlər, həlledici anlarda Vətənin və Xalqın nicatı Heydər Əliyevin xalqla birliyi və uzaqgörən siyasəti ilə bilavasitə bağlıdır.

70 illik ağır sınaqlarla dolu bir yol keçən Azərbaycan azadlıq uğrunda mübarizədə neçə-neçə oğlunu qurban vermişdir. Hakimiyyət davası və səriştəsizlik, torpaqlarımızın mənfur erməni silahlı qüvvələri tərəfindən işğal edilməsinə şərait yaradırdı. Azərbaycanı bu bəladan xilas etmək, iqtisadi böhranlardan qorumaq üçün qüdrətli bir əl, dərin zəka, güclü məntiqə malik bir şəxsiyyət lazım idi. Belə bir şəxsiyyət isə Heydər Əlirza oğlu Əliyev idi. Təbii ki, xalq yeganə çıxış yolunu Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında görürdü.

Ümummilli liderimiz Heydər Əliyevin tarixin ən çətin, məsuliyyətli dövrlərində Azərbaycanı yaşatmaq kimi ağır yükün altına girən fenomenal şəxsiyyət olduğu danılmazdır. Ulu öndər siyasi və dövlətçilik fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət qurub-yaratmaq arzusu ilə yaşamış, milli ideyalara bağlı olmuşdur. Ümummilli lider bütün zəngin və mənalı həyatı boyu həmişə Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən xilas etmək üçün misilsiz fədakarkarlıqlar göstərmişdir.



Xalqın səsinə səs verən ümummilli lider hakimiyyətə gələn kimi ilk növbədə qanunsuz silahlı dəstələrin fəaliyyətinə son qoydu, daxildə asayişi bərpa etdi. Beləliklə, Azərbaycan parçalanıb dağılmaq və müstəqilliyini itirmək təhlükəsindən qurtuldu. Qısa bir müddət ərzində ölkədəki böhran aradan qaldırıldı, vətəndaş müharibəsinin qarşısı alındı.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ölkəni xaosdan və dövlətçiliyini itirmək təhlükəsindən xilas etdi. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev özünün siyasi yenilməzliyi və qətiyyəti ilə Azərbaycan dövlətçiliyini ağır faciələrdən xilas etdi. 1995-ci ildə qəbul olunmuş Konstitusiya ilə Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi müəyyənləşdirdi. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına geniş imkanlar açdı. Beləliklə, Azərbaycanın beynəlxalq arenada özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində qlobal işlərə start verildi.

İndi hər il Azərbaycan xalqı iyunun 15-ni Milli Qurtuluş Günü kimi bayram edir. Həmin gün Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə ölkə əhalisi rahat nəfəs almağa başladı. O vaxt xalqımızın böyük oğlu bu kəlamı ifadə etmişdi: "Mən həyatımın qalan hissəsini öz xalqıma həsr edəcəyəm". Ümummilli liderimiz bunu yorulmaz fəaliyyəti, məqsədyönlü işi və sanballı əməlləri ilə sübuta yetirdi.

Bir əsrdə ikinci dəfə Milli dövlətçiliyi dağılmaq təhlükəsi qarşısında qalan Azərbaycan xalqı yalnız Heydər Əliyev dühasına arxalanaraq öz dövlətini qorudu. Xalq öz böyük, sınanmış liderinin sayəsində milli qurtuluşa nail oldu. Heydər Əliyev bu yolda gördüyü işlərlə, iqtisadi islahatlar, hüquqi demokratik dövlət quruculuğu və ölkəmizin dünyaya inteqrasiyası sahəsindəki fəaliyyəti nəticəsində XX və XXI əsr Azərbaycanın ən görkəmli şəxsiyyəti kimi dünya tarixinə düşdü. Ən böyük xoşbəxtlik ulu öndər Heydər Əliyevin müəyyən etdiyi dövlət idarəçiliyi strategiyasının bu gün onun ideyalarına sadiq olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilməsidir. Ulu öndərin vaxtilə dediyi fikirlər bu gün öz təsdiqini bir daha tapır: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyükli məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının siyasi uzaqgörənliyi, diplomatik məharəti, dünya iqtisadiyyatında gedən prosesləri dərindən bilməsi nəticəsində bu gün müstəqil Azərbaycan yeni inkişaf dövrünü yaşayır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında respublikamızın yeni inkişaf mərhələsində əsas hədəfinin çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyat olduğu göstərilmişdir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən də milli-maddi və qeyri-maddi mənəvi irsimizin qorunub saxlanılması, təbliği, mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın inkişaf etdirilməsi sahəsində xeyli iş görülmüşdür.

Son günlər 25-27 aprel 2016-cı il tarixlərdə BMT-nin sivilizasiyalar alyansının 7-ci Bakı Qlobal Forumunun uğurla keçirilməsi multikulturalizmin təşviqi baxımından mühüm tədbir oldu. Bu möhtəşəm tədbirdə 147 ölkəni təmsil edən 4 mindən artıq nümayəndə qatıldı. Tədbirin möhtəşəmliyi bir daha Azərbaycanın beynəlxalq multikultural mərkəz olaraq dünyaya tanıdılmasının sübutu oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının Qazax rayonuna 7 dəfə səfər etməsi onun regionların sosial-iqtisadi inkişafına böyük diqqət və qayğı göstərməsinin əyani təzahürüdür. Qazax rayonunda son illər tikilib istifadəyə verilmiş Heydər Əliyev Mərkəzi, Müalicə Diaqnostika Mərkəzi, Olimpiya Kompleksi, Konserv zavodu, Sement zavodu, "AzRosPromİnvest" birgə müəssisəsi, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Ədəbiyyat Muzeyi və onlarla digər sosial və istehsal yönümlü obyektlər məhz möhtərəm prezidentimizin təşəbbüsü, diqqət və qayğısı nəticəsində rayonumuzda tikilib istifadəyə verilmişdir. Həmin obyektlərin açılışında möhtərəm Prezidentimizin şəxsən özü iştirak etmişdir. "Qazax rayonu Azərbaycanın paytaxtından ən uzaqda yerləşən rayonlardan biridir. Ona görə bu rayona xüsusi diqqət, xüsusi qayğı göstərilməlidir" fikri möhtərəm Prezidentimizin Qazağa və qazaxlılara çox böyük diqqət və qayğısıdır. Bu sözlər bizi daha yaxşı işləməyə, çalışmağa ruhlandırır, xoşbəxt gələcəyə və işıqlı sabaha inamımızı daha da artırır.

Hörmətli tədbir iştirakçıları, əziz qazaxlılar,

15 iyun-Qurtuluş Günü münasibətilə Sizi və bütün xalqımızı ürəkdən təbrik edir, işlərinizdə uğurlar, həyatda isə möhkəm cansağlığı arzulayıram.

# RAYONUMUZDA 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜ QAZAX RAYON İCRA HAKİMİYYƏTİNİN TƏŞKİL ETDİYİ KONSERT PROQRAMI İLƏ QEYD OLUNMUŞDUR










**15 iyun Milli Qurtuluş Günü rayonumuzda böyük konsert proqramı ilə qeyd olunmuşdur. Bu münasibətlə respublikamızın tanınmış incəsənət xadimlərindən, müğənnilərdən, aşıqlardan ibarət böyük bir musiqiçi qrupu geniş konsert proqramı ilə çıxış etmişdir.**

Çox keçmədi ki, aparıclar Afaq Gəncəli və Ceyhun Əli sarayın qarşısında qurulmuş səhnədə göründülər. Onlar 15 iyun Milli Qurtuluş Günü münasibətilə təşkil olunmuş konsertin başladığını elan etdilər. İlkin olaraq səhnəyə gənc və istedadlı müğənni Abbas Bağırov çıxdı. Onun ifa etdiyi bir-birindən gözəl nəğmələr rayon sakinləri tərəfindən alqışlarla qarşılandı.

Müğənni Gülay Zeynallının ifası da yaddaqalan oldu. Belə ki, o, səhnəyə çıxanda hər tərəfi alqış sədaları bürüdü. Gənclərin sevimlisi olan Rəvan Qarayev oxuduğu mahnını gurultulu alqış sədaları altında ifa etdi.

Respublikanın əməkdar artisti Sabir Əliyevin musiqi töhfələri əsl bayram əhval-ruhiyyəsi yaratdı. Gözəl səsə sahib olan, gənc müğənnilər Fədaya Laçın və Könül Məmmədlinin çıxışları da alqışlarla qarşılandı. Onların ifasında səslənən estrada mahnıları tamaşaçılarda, xüsusilə də gənclərdə xoş təəssürat oyatdı.

Sazın, sözün beşiyi olan Qazax hər zaman aşıq mahnıları ilə seçilmişdir. Aşıqlarımızın ifası həmişə alqışlarla qarşılanmışdır. Bu dəfə də belə oldu. Aparıcıların aşıqlardan Camoy Çaylını, Samir Allahverdiyevi, Saqif Məzəmlini və Yaşar Gülümcanovu səhnəyə dəvət etməsi tədbirə bir coşqunluq gətirdi. Aşıqlar tərəfindən səslənən şən-şux mahnılar tamaşaçıların könlünü oxşadı.

Muğam ifaçılarından Eldəniz Məmmədovun, respublikanın əməkdar artisti Babək Niftəliyevin çıxışları da tamaşaçılar tərəfindən böyük sevinc hissi ilə qarşılandı, el şənliyinə yığışanların bayram əhval-ruhiyyəsini artırdı.

Öz əsrarəngiz səsi ilə könüllər oxşayan Aygün Bəylər də bir-birindən şən, şux nəğmələr oxudu. Onun gözəl səsi bir daha tamaşaçıları valeh etdi. Müğənninin əllərində üçrəngli Azərbaycan Bayrağı tutmuş gənclərin müşayəti ilə ifa etdiyi şən-şux mahnılar əsl bayram coşqusu yaratdı.

Gənc ifaçılardan ibarət "Qismət" qrupunun oxuduqları mahnılar da bayram şənliyinə xüsusi rəng qatdı. Sonra söz meyxanaçılara verildi. Qazaxlı meyxanaçılardan Əmir Qazaxlı və Mədət Tənhanın rayonumuza həsr etdikləri mahnı gənclərin alqışına səbəb oldu.

Konsert proqramı getdikcə daha rəngarəng mahnılarla davam edir, oxunan nəğmələr tamaşaçılar arasında əks-səda doğururdu. Səhnədə müğənnilər bir-birini əvəz edir, konsertə toplaşanların zövqünə uyğun mahnılar ifa edirdilər.

15 iyun Milli Qurtuluş Günü münasibətilə Qazax rayon İcra Hakimiyyətinin təşkil etdiyi konsert proqramı böyük ruh yüksəkliyi ilə başa çatdı. Tədbirdə uğurlardan danışıldı, nailiyyətlərdən söz açıldı, uğurlarımıza həsr olunmuş mahnılar oxundu, nəğmələr ifa edildi.

Bəli, uğurlarımız çoxdur. Lakin qarşıda bizi daha böyük nailiyyətlər, xoş xəbərlər gözləyir. Ona görə də uğurlar bizi sabaha bir-birindən daha xoş, daha aydın sabahlara səsləyir. Çünki Azərbaycan sözün əsl mənasında müstəqil dövlətdir. Ulu öndər Heydər Əliyevin ideyalarının uğurla həyata keçirilməsinin nəticəsi olaraq dövlət müstəqilliyimiz gündən-günə daha da möhkəmlənir və güclənir. Möhtərəm cənab Prezident İlham Əliyevin sözləri ilə desək dövlət müstəqilliyi Azərbaycan xalqı üçün ən böyük sərvətdir.



















Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 2000 SİFARİŞ: 1730

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
*Fotolar: Salmanındır.*